UOT 1048 S 327 A

**S. Ə. SƏFƏROV**

**Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi**
**E-mail: sevindik 2021@gmail.com**

# AZƏRBAYCAN DÖVLƏTİNİN QANUNVERİCİLİK BAZASININ TƏKMİLLƏŞMƏSİNDƏ BEYNƏLXALQ HÜQUQÜN ROLU

Məqalədə beynəlxalq hüququn norma və prinsiplərinin dövlətlərin daxili qanunvericiliyə tətbiqi, dövlətdaxili qanunların beynəlxalq normalara uyğunlaşdırılmasının əhəmiyyəti qeyd edilir. Azərbaycan qanunvericiliyinin təkmilləşməsində beynəlxalq hüququn rolu araşdırılır.

**Açar sözlər:** beynəlxalq hüquq, milli qanunvericilik, hüquq norma və prinsipləri, hüquqi mexanizm, Azərbaycan qanunvericiliyi.

Müxtəlif dövlətlərdə bərqərar olmuş demokratik idarəetmə forması ümumi qəbul olunmuş klassik prinsiplərlə bərabər, tətbiq edildiyi dövlətin, ərazinin, əhalinin keçdiyi tarixi inkişaf yoluna, özünəməxsus idarəetmə ənənələrinə müvafiq olaraq spesifik əhəmiyyət kəsb edir.

Başqa sözlə desək, demokratiyanın ilkin formasından fərqli olaraq müasir idarəetmədə tətbiq olunan bu idarəetmə forması hər bir dövlətdə mövcud tarixi ənənələri özündə ehtiva etməklə nəzərəçarpacaq müxtəlifliyi ilə seçilir. Məhz bu müxtəliflik, dünyanın bir çox dövlətlərini siyasi, iqtisadi, mədəni və s. sahədə bir-biri ilə əməkdaşlıq etməyə, qarşılıqlı münasibətlər yaratmağa və daha uyğun idarəetmə prinsiplərini mənimsəməyə sövq edir.

Bu baxımdan, demokratik idarəetmə formasının tətbiq olunduğu gənc ölkələrin dünyaya inteqrasiya etməsi, beynəlxalq hüququn norma və prinsiplərindən faydalanması zəruridir. Milli hüququn beynəlxalq hüquqa uyğunlaşdırılması qloballaşma şəraitində dövlətin beynəlxalq birliyə daha yaxından inteqrasiya etməsi, dövlətdaxili qanunvericiliyin təkmilləşdirilməsi və inkişafı, habelə insan və vətəndaş hüquq və azadlıqlarının daha dolğun və səmərəli şəkildə reallaşdırılması üçün vacib əhəmiyyət kəsb edir.

Beynəlxalq hüququn əsas prinsiplərindən biri kimi beynəlxalq öhdəliklərin bir mənalı yerinə yetirilməsidir. Bu prinsip milli qanunların və dövlətin öz daxili səlahiyyətləri çərçivəsində həyata keçirdiyi tədbirlərin həmin öhdəliklərə uyğunlaşdırılmasını nəzərdə tutur. Beynəlxalq hüquq normaları nəzərə alınmadan qanunvericilik bazasını hərtərəfli şəkildə inkişaf etdirmək, təkmilləşdirmək qeyri-mümkündür, yəni müasir qloballaşma dövründə beynəlxalq və dövlətdaxili hüquq sistemləri bir-biri ilə sıx surətdə bağlıdır.

Dövlətlər tərəfindən beynəlxalq öhdəliklərin yerinə yetirilməsi ilə bağlı beynəlxalq birliyin mövqeyi universal müqavilə olan "Beynəlxalq müqavilələr hüququ haqqında" 1969-cu il Vyana Konvensiyasının *"Daxili hüquq və müqavilələrə riayət olunması"* adlanan 27-ci maddəsində ifadə olunmuşdur: ***hər hansı müqavilənin iştirakçı dövləti müqaviləni yerinə yetirməmək üçün özünə bəraət qazandırmaq məqsədilə daxili hüquqa istinad edə bilməz*** [1]. Bu normanı daxili hüquqda müvafiq müddəanın olmamasına istinad edilməsinin yolverilməzliyi mənasında da təfsir etmək olar.

Milli qanunvericiliyin beynəlxalq hüquqa uyğunlaşdırılması öhdəliklərin yerinə yetirilməsinin zəruri şərti kimi xarakterizə etmək olar. Beynəlxalq səviyyədə unifikasiya, qloballaşma, bütün dünyada iqtisadi münasibətlərin sürətli inkişafı, insan fəaliyyətinin müxtəlif sahələrində təcrübə mübadiləsinin zəruriliyini şərtləndirir. Bu proseslər hüququn inkişafına da öz təsirini göstərir. Unifikasiya prosesi çərçivəsində beynəlxalq hüquqi aktların milli hüquq sisteminə təsirinin müxtəlif üsulları uzlaşdırılır. Beynəlxalq müqavilə normalarının milli hüquq sisteminə





daxil edilməsi hüquq sisteminin daha da təkmilləşdirilməsinin səmərəli mexanizmlərindən biri kimi çıxış edir.

Beynəlxalq hüququn əsas mənbəyi və milli hüququn təkmilləşdirilməsi vasitəsi kimi beynəlxalq müqavilələr milli qanunvericiliyin inkişafına müsbət təsir göstərməklə yanaşı, dövlətlər arasında etimadı möhkəmləndirir, onların qanunvericilikləri arasında fərqləri, ziddiyyətli məqamları və uyğunsuzluqları xeyli dərəcədə azaldır, qloballaşan dünyada vahid və uzlaşmış, harmoniya prinsipinə əsaslanan hüquqi məkanın formalaşmasına, dövlət hakimiyyəti orqanlarının fəaliyyətində qanunçuluğun təmin olunmasına və hüququn tətbiqetmə təcrübəsinin səmərəliliyinin artmasına əlverişli zəmin yaradır.

Dövlətdaxili hüququn beynəlxalq hüquqa uyğunlaşdırılması predmeti kimi konstitusiya, qanunlar, inzibati və məhkəmə aktları çıxış edə bilər [2, s. 218]. Ona görə də həm normayaradıcılığı, həm də normatətbiqi fəaliyyəti sahəsində uyğunlaşdırma həyata keçirilə bilər.

S.V.Çerniçenko göstərir ki, dövlət öz daxili hüququnu milli hüquq sistemlərinə şamil olunan beynəlxalq hüquq normalarına uyğunlaşdırmaq vəzifəsi daşıyır [3, s. 32].

Q.İ.Tunkin qeyd edir ki, dövlətdaxili hüquq normaları ilə beynəlxalq hüquq normaları arasında uyğunsuzluq yarandığı hallarda dövlət öz beynəlxalq öhdəliklərini yerinə yetirməlidir, həm də daxili qanunvericiliyə istinad dövləti bu öhdəlikləri yerinə yetirməkdən azad edə bilməz [4, s. 11].

Hüquq sistemlərinin qarşılıqlı təsiri birgə tənzimetmə predmetinə aid olan münasibətlərin uzlaşmış tənzimində təzahür edir. Bu baxımdan, Q.V.İqnatenko qeyid edir ki, beynəlxalq müqavilələrin milli qanunvericiliyə təsirinin məqsədi, onun müqavilə göstərişləri ilə uyğunluğunun təmin olunmasından ibarətdir [5, s. 70].

V.Q.Butkeviç qeyd edir ki, beynəlxalq hüquq norma və prinsiplərinin yerinə yetirilməsi daxili qanunvericilik normalarının qəbul olunması ilə məhdudlaşmamalı, müqavilədə nəzərdə tutulduğu qədər və ya hüququn həyata keçirilməsi şərtlərinin tələb etdiyi qədər davam etməlidir [6, s. 55].

İ.P.Blişenko hesab edir ki, beynəlxalq hüquq ilə daxili qanun arasında ziddiyyət yarandıqda onu iki dövlətdaxili normanın kolliziyası kimi həll etmək lazımdır [3, s. 105]. Lakin beynəlxalq hüquq normalarınının dövlətdaxili hüququn subyektləri tərəfindən həyata keçirilməsi üçün onları milli qanunvericiliyə implementasiya etmək lazımdır, yəni yalnız dövlətdaxili hüquq normaları həmin subyektlər üçün məcburi xarakter daşıyır [7, s. 16; 8, s. 247-250; 9, s. 57-90].

Xarici dövlətlərdə milli qanunvericiliyin beynəlxalq hüquqa uyğunlaşdırılması müxtəlif formada həll edilir. Məsələn, ABŞ-da, Fransada, Hollandiyada və s. dövlətlərdə milli qanunvericilik beynəlxalq müqavilələri ölkə hüququnun tərkib hissəsi kimi elan edir. Həmin ölkələrin konstitusiyalarına uyğun olaraq beynəlxalq müqavilələr milli hüququn təsir sahəsində fəaliyyət göstərə bilər. Bəzi ölkələrin konstitusiyasında isə beynəlxalq hüququn milli hüquqa münasibətdə aliliyi elan olunur. Məsələn, AFR Konstitusiyasına görə beynəlxalq hüququn ümumi normaları qanunlar üzərində üstünlüyə malikdir [10].

Respublikamızda qanunvericiliyin beynəlxalq hüququn hamılıqla qəbul olunmuş norma və prinsiplərinə, beynəlxalq müqavilələrin tələblərinə uyğunlaşdırılması üçün məqsədyönlü və ardıcıl tədbirlər həyata keçirilir.

Azərbaycan Respublikasının qanunvericiliyində beynəlxalq hüquq normalarının yeri, beynəlxalq hüquqla dövlətdaxili (milli) hüququn qarşılıqlı əlaqəsi Azərbaycan Respublikasının Konstitusiyasında dəqiq şəkildə tənzimlənir. Konstitusiyanın "Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan aktlar" adlanan 148-ci maddəsinin II hissəsində göstərilir ki, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir [11, s. 55]. Bu müddəa Azərbaycan Respublikasının beynəlxalq müqavilələrin və ya beynəlxalq hüquq normalarının həyata keçirilməsində inkorporasiya yolunu seçdiyini göstərir. Beynəlxalq aktların hüquqi qüvvəsini təmzimləyən 151-ci maddədə qeyd edilir ki, Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlarla (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla

qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir [11, s. 57].

Göründüyü kimi Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr respublikanın hüquq sisteminə daxil olan normativ aktların iyerarxiyasında hüquqi qüvvəsinə görə Konstitusiyadan və referendum yolu ilə qəbul edilmiş aktlardan sonra üçüncü yerdə durur. Konstitusiyamızda insan hüquqları üzrə beynəlxalq standartlara münasibətdə beynəlxalq hüquqla milli hüququn nisbəti məsələsi uğurla həll edilmişdir. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinin ikinci hissəsində birbaşa göstərilir ki, Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir [11, s. 7].

Beləliklə, dövlətin qanunvericilik bazasının təkmilləşdirilməsində beynəlxalq hüquq normalarının rolu və əhəmiyyəti ilə bağlı araşdırılan məsələlərin, həmçinin, yuxarıda qeyd edilən bütün fikirlərin təhlili və ümumiləşdirilməsi əsasında aşağıdakıları qeyd etmək olar:

1. Milli hüquq normaları ilə beynəlxalq hüquq normalarının qarşılıqlı təsiri beynəlxalq müqavilələr hazırlanarkən milli hüquq normaları və prinsiplərinin nəzərə alınmasında, habelə milli qanunvericiliyin qüvvəyə minmiş beynəlxalq müqavilələrə uyğunlaşdırılmasında özünü göstərir;

2. Beynəlxalq müqavilələrin implementasiyası beynəlxalq hüququn daxili qanunvericiliyə gətirilməsi prosesinin və üsullarının məcmusu olmaqla, səlahiyyətli orqanların şəxsində dövlətin beynəlxalq hüququn hamılıqla qəbul olunmuş norma və prinsiplərindən irəli gələn beynəlxalq hüquqi öhdəliklərinin həyata keçirilməsinə yönələn normayaradıcılığı və təşkilati-icra fəaliyyətində, habelə beynəlxalq hüquq normalarının birbaşa qanunvericilikdə əks olunmasında təzahür edir;

Müasir dövrdə milli qanunvericiliyin insan hüquqlarına dair beynəlxalq aktlara uyğunlaşdırılması üçün əsasən aşağıdakı üsullardan istifadə olunur:

- beynəlxalq normanın dövlətdaxili normativ hüquqi akta daxil edilməsi;
- ratifikasiya olunmuş beynəlxalq aktların bilavasitə tətbiq edilməsi.

Bu zaman dövlətin müvafiq beynəlxalq aktın tələblərinə riayət etmək öhdəliyi yaranır və bu öhdəliyin icrasına nəzarət mexanizmi mövcud olur. Bu isə insan hüquqlarının və azadlıqlarının daha səmərəli və hamılıqla qəbul olunmuş beynəlxalq standartlara uyğun təmin olunması üçün əlverişli zəmin yaradır. Konvensiyanın ratifikasiyası ilk növbədə dövlətin öz üzərinə götürdüyü beynəlxalq öhdəliyi yerinə yetirmək vəzifəsi ilə bağlı olur.

Hüquq o zaman inkişaf edir və səmərəli həyata keçirilir ki, onun tərkib elementləri, ilk növbədə hüquq normalarının özü daxilən harmonik, ziddiyyətsiz və uzlaşmış olsun. Hüquq normalarının ziddiyyətli olması hüquqi tənzimetmənin sistemliliyini pozmaqla onun səmərəliliyini azaldır. Dövlətdaxili hüquqda bütün hüquq normaları Konstitusiyaya uyğun olmalıdır. Belə uzlaşmış sistem olmadan hüququn funksiyalarının səmərəli yerinə yetirilməsi qeyri-mümkündür. Bu, normalarının bir hissəsi dövlətdaxili hüquqda tətbiq edilən beynəlxalq hüquqa da aiddir. Müasir dövrdə dövlətdaxili münasibətlərin səmərəli və uğurlu hüquqi tənzimi milli hüquq normalarının beynəlxalq hüquq normalarına uyğunluğundan xeyli dərəcədə asılıdır.

Azərbaycan Respublikasının qanunvericiliyinin təhlili bu sahədə bir sıra müddəaların beynəlxalq müqavilələrin tələblərinə uyğunlaşdırılmasının zəruriliyini göstərir. Eyni zamanda, Azərbaycan Respublikasının insan hüquqları sahəsində bəzi beynəlxalq sənədlərə qoşulması Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli, 1938 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın müvafiq bəndlərinin tələblərinə uyğun olmaqla respublikamızda insan hüquqlarının təminat səviyyəsinin daha da artmasına şərait yarada bilər.

Ölkənin milli qanunvericilik bazasının təkmilləşməsində beynəlxalq hüququn təsiri daha çox beynəlxalq təşkilatlar vasitəsilə daha effektiv olur.

Başqa sözlə, beynəlxalq təşkilatlar beynəlxalq hüquq sisteminin dövlətlərin qanunvericilik bazasına daxil edilməsində mühüm rol oynayırlar. Beynəlxalq təşkilatlar Azərbaycan Respublikasında demokratik dəyərlərin, hüquqi demokratik dövlətin və vətəndaş cəmiyyətinin bərqərar olmasına yaxından dəstək verir. Belə təşkilatlardan aşağıdakıları misal çəkmək olar:





Birləşmiş Millətlər Təşkilatı (BMT), Avropa Şurası(AŞ), ATƏT, MDB, QDİƏT, İSK, GÜAM, Seçki Sistemləri üzrə Beynəlxalq Fond (İFES), ABŞ-ın Sülh və Demokratiya İnstitutu, Avropa Parlamenti, NATO, təşkilatı və başqaları. Qeyd olunan bu təşkilatlar gənc demokratik ölkələrdə idarəetmənin hüquqi bazasının təkmilləşdirilməsinə, beynəlxalq hüquq normalarına uyğunlaşdırılmasına, demokratik quruculuq işlərinə yaxından köməklik göstərirlər.

Azərbaycanla Avropa Şurası arasında əməkdaşlığın genişləndirilməsi yolunda praktiki olaraq ən mühüm addım Azərbaycanın ümummilli lideri Heydər Əliyevin **20 yanvar 1998-ci il** tarixli ***"Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi sahəsində tədbirlər haqqında"*** Sərəncamı [12] olmuşdur. Sərəncamda insan hüquqlarının qorunmasına dair bir sıra beynəlxalq sənədlər imzalamış, Azərbaycanın Avropa Şurasına qoşulmasına dair hazırlıq tədbirlərinin görülməsi öz əksini tapmışdı. Azərbaycanda ölüm hökmünün ləğv olunması, bütün kütləvi informasiya vasitələrinə sərbəstlik verilməsi və senzuranın götürülməsi, Konstitusiya Məhkəməsinin yaradılması demokratik cəmiyyət quruculuğunun başlıca atributlarını əks etdirməklə yanaşı ölkəmizin Avropa Şurasının üzvlüyünə qəbulu yolunda geniş imkanlar açırdı.

Əsas vəzifələrdən biri də ölkəmizdə demokratik və hüquqi dövlət quruculuğu işində islahatları davam etdirmək üçün Avropa Şurasının Azərbaycan qarşısında qoyduğu konkret öhdəliklərin yerinə yetirilməsi və vətəndaş cəmiyyətinin inkişafının təmin edilməsi olmuşdur. Qeyd etməliyik ki, Azərbaycan qısa müddət ərzində üzərinə götürdüyü öhdəliklərin böyük bir hissəsini yerinə yetirmişdir. Hətta elə məsələlər var ki, onlarla bağlı Azərbaycan Avropa Şurasına üzv olmamışdan əvvəl, hələ konkret öhdəlik götürməməsinə baxmayaraq, xeyli əməli iş görmüşdü. Azərbaycanda hüquq islahatları, torpaq islahatları, iqtisadi islahatlar həyata keçirilmiş, söz azadlığı, vicdan, din azadlığı və Konstitusiyada təsbit edilmiş insan hüquqlarının qorunması tam təmin edilmişdir. Azərbaycanda sivil, dünya standartlarına cavab verən demokratik təsisatlar fəaliyyətə başlamış və bu istiqamətdə işlər daha sürətlə aparılmışdır. Siyasi və iqtisadi islahatların aparılması hal-hazırki dövrdə də dövlətin siyasətinin bir nömrəli prioritet məsələlərindən biridir.

Qeyd etmək olaraq ki, demokratik dövlət quruculuğu uzun surən bir prosesdir. Belə ki, Avropa dövlətləri 300 ildən artıqdır ki, bu istiqamətdə hələ də mükəmməl vahid idarəetmə dəyərləri, prinsiplərinə nail ola bilməmişlər (**bəşər cəmiyyəti inkişaf etdikcə, insanların dünyagörüşləri dəyişdikcə qanunvericilik bazasının təkmilləşməsinə, onun uyğunlaşdırılmasına hər zaman zərurət yaranır**). Son dövrlərdə qərbdə cərəyan edən siyasi proseslər bir daha demokratiyanın hələ də təkmilləşməyə ehtiyac olduğunu göstərir.

Bu mənada, Azərbaycan kimi son zamanlarda müstəqilliyini əldə etmiş bir ölkə üçün, təcrübəli dövlətlərə inteqrasiya etməklə artıq mövcud olan dəyərləri mənimsəmək, tətbiq və inkişaf etmək daha səmərəlidir. Qarşılıqlı mübadilə nəticəsində Azərbaycanın bu sahədə inkişaf etmiş dövlətlərə inteqrasiya etməklə mütərəqqi dəyərlərdən bəhrələnməsi dövlətin daha qısa zamanda idarəetmədə, insan hüquq və azadlıqlarının formalaşmasında böyük üstünlük qazandırmışdır. Müstəqillik əldən etdikdən bu günə kimi olan dövr ərzində istər iqtisadi, istərsə siyasi və istərsə də digər sahələrdə böyük nailiyyətlər əldə etmişdir. Şübhəsiz ki, bu uğurların əldə olunmasında dövlətin özünün iradəsi, həyata keçirdiyi islahatlarla bərabər üzv olduğu beynəlxalq təşkilatların, əməkdaşlıq etdiyi dövlətlərin təsiri az olmamışdır.

## NƏTİCƏ

Demokratik idarəetmə sisteminə keçid təkcə strukturun qurulması, qanunvericilik bazasının təkmiləşdirilməsi, onun beynəlxalq normalara uyğunlaşdırılması ilə həll olunmur, demokratik prinsiplər, ideyalar, normalar insanların şüurunda, təfəkküründə formalaşmalı və bərqərar olması həlli vacib olan məsələlərdəndir. Əgər bu proses baş vermirsə idarəetmə sisteminin tam olaraq formalaşması da qeyri-mümkündür. Bu mənada Azərbaycanda struktur, qanunvericilik bazası müəyyən vaxt çərçivəsində qurulması yekunlaşsa da, əhalinin təfəkküründə bu ideyaların tam olaraq bərqərar olması üçün hələ müəyyən zamana ehtiyacı vardır.

## ƏDƏBİYYAT


1.Венская конвенция о праве международных договоров 1969 г. // - Москва: Международное публичное право. Сборник документов. Т.1. - Москва:: БЕК, - 1996. – 563 с.

2.Буткевич, В.Г. Советское право и международный договор / В.Г.Буткевич. - Киев: Вища школа, - 1977. – 421 с.

3.Блищенко, И.П. Действие международного договора на территорий СССР // - Москва: Правоведение, - 1968. № 6, - с. 105-113.

4.Тункин, Г.И. Основы современного международного права / Г.И.Тункин. - Москва: ВПШ, - 1956. – 395 с.

5.Игнатенко, Г.В. Советское законодательство и международные договоры: опыт, тенденции и проблемы взаимодействия // - Москва:Правоведение, - 1987. № 5, - с. 70-76.

6.Буткевич, В.Г.Соотношение внутригосударственного и международного права / В.Г. Буткевич. - Киев: Вища школа, - 1981. – 455 с.

7.Миронов, Н.В. Правовые формы социалистической интеграции / Н.В.Миронов. - Москва: Международная отношения, - 1977. – 128 с.

8.Левин, Д.Б. Актуальные проблемы теории международного права / Д.Б. Левин. - Москва: Наука, - 1974. – 385 с.

9.Усенко Е.Т. Теоретические проблемы соотношения международного и внутригосударственного права // - Москва: Советский ежегодник международного права, - 1979. - с. 57-90.

10.Маклаков, В.В. Конституции зарубежных государств: Учеб. Пос. / В.В. Маклаков. - Москва: - 1999. - "БЕК" – 432 с.

11.Azərbaycan Respublikasının Konstitusiyası. - Bakı: Biznes xəbərləri, - 2012. - səə

12.Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşməsi sahəsində tədbirləri haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı //Azərbaycan. – Bakı: - 1998, 22 yanvar - s.2.


## SUMMARY


**S. A. SAPHAROV**

**Azerbaijan Higher Military School named after Heydar Aliyev**

**E-mail: sevikdik 2021@gmail.com**


## THE ROLE OF INTERNATIONAL RIGHTS IN IMPROVEMENT OF THE LEGISLATIVE BASE OF THE AZERBAIJANI STATE.


The article highlights the importance of applying international law norms and principles to domestic legislation, and the harmonization of domestic law with international norms. The role of international law is being studied in the improvement of Azerbaijani legislation.



**Key word:** international law, national legislation, legal norms and principles, legal mechanism, Azerbaijani legislation.


## РЕЗЮМЕ


**САФАРОВ С. А.**

**Азербайджанское высшее военное училище имени Гейдара Алиева**

**Электронное письмо: E-mail: sevindik 2021@gmail.com**


## РОЛЬ МЕЖДУНАРОДНОГО ПРАВА В УЛУЧШЕНИИ ЗАКОНОДАТЕЛЬНОЙ БАЗЫ АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВА


В статье подчеркивается важность применения норм и принципов международного права для внутреннего законодательства и гармонизации внутреннего законодательства с международными нормами. Изучается роль международного права в совершенствовании законодательства Азербайджана.



**Ключевые слова:** международное право, национальное законодательство, правовые нормы и принципы, правовые механизм, законодательство Азербайджана.

*Məqalə redaksiyaya daxil olmuşdur: 16.05.21*